# Azərbaycanı arzularında bütövləşdirən Qulamrza Təbrizi

**Görkəmli ictimai xadim, ədəbiyyatşünas, şair, tərcüməçi və pedaqoq Qulamrza Səbri Təbrizi Arazın bu tayında dövlət müstəqilliyimizin bərpa edilməsini xaricdə ilk alqışlayan mühacir soydaşlarımızdan biri kimi, sonrakı illərdə milli diasporumuzun formalaşmasında da misilsiz xidmət göstərmişdi.**

Qulamrza Səbri Azərbaycanın Güneyində, qədim və zəngin mədəniyyət mərkəzi, inqilablar beşiyi olan Təbrizdə dünyaya göz açmışdı. Atası Hacı Məhəmmədəli xalça fabrikinin sahibi idi. Burada 1940–1944-cü illərdə ibtidai dini məktəbi, sonra 1944–1953-cü illərdə Məhəmmədiyyə, Nizami və Firdovsi mədrəsələrini bitirmişdi. O, 1953–1958-ci illərdə Təbriz Universitetinin fars, ingilis dili və pedaqogika fakültəsində təhsilini davam etdirmişdi.

Əsrin əvvəllərindən bu yana Təbrizdə baş verən inqilablar şairi çox düşündürmüşdü. Bunlardan ikisinin yaxından şahidi olmuşdu. Seyid Cəfər Pişəvəri hərəkatı onun uşaqlıq, İslam inqilabı isə kamillik dövrünə təsadüf etmişdi. 21 Azər hərəkatında 12 yaşlı uşağın gözləri qarşısında yüzlərlə mücahidin azadlıq yolunda axıtdığı qan onun yaddaşına həmişəlik hopmuşdu. Sonuncu İslam inqilabı baş verəndə o, qürbətdə yaşasa da, Vətənə dönüb müşahidə etdiklərini güllə yağışları altında kameraya köçürmüşdü.

Şair həmişə inqilablar beşiyi olmuş Təbrizin hər gələn baharını qiyama bənzətmişdi:

*Bahar Təbrizin qiyamıdı,*
*Əsarət yuxusundan diksinişidi,*
*Azadlıq eşqidi.*

Qulamrza Təbrizi tələbəlik illərində orta məktəblərdə müəllim kimi fəaliyyət göstərməklə yanaşı, 1956–1958-ci illərdə Amerikanın İrandakı hərbi idarəsində tərcüməçi olaraq çalışmışdı. 1958-ci ildə İstanbul şəhərində Bəyazid Universitetinin ingilis dili və ədəbiyyatı fakültəsində magistr pilləsinə qəbul olmuş, lakin ölkədəki mürəkkəb durumla bağlı təhsilini yarımçıq qoyub Təbrizə qayıtmışdı. Daha sonra 1959–1963-cü illərdə isə London Universitetinin Kinqs kollecində magistr təhsili almışdı.

Soydaşımız 1961–1963-cü illərdə London BBC radiosunda Şərq və Orta Asiya üzrə ədəbi və siyasi icmalçı, həm də "Nəzər saatı"nın aparıcısı kimi fəaliyyət göstərmişdi. Təbrizi 1963–1969-cu illərdə Edinburq Universitetinin İngilis dili və Ədəbiyyatı Departamentinə doktoranturaya daxil olmuş, "Vilyam Bleykin dialektik fikirləri" mövzusunda



doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi almışdı. Bu müddətdə Edinburq Universitetinin Şərqşünaslıq İnstitutunda, eləcə də dünyanın bir sıra ali məktəblərində məruzələrlə çıxış etmişdi. O, İran İslam inqilabı dövründə Təbrizdə elmi-pedaqoji və siyasi fəaliyyətini davam etdirmişdi.

Vətənə yenicə qovuşmuş Təbrizi burada din xadimlərinin təqibinə məruz qaldığı üçün yenidən Böyük Britaniyaya qayıtmış və 1978–1995-ci illərdə televiziya şirkətlərində icmalçı olmuşdu. Təbrizi 1989–1990-cı illərdə Məhəmmədəli Mahmudla birlikdə türk və fars dillərində "Odlar ölkəsi" adlı aylıq qəzet nəşr etdirmişdi.

Qulamrza müəllim şair kimi bədii yaradıcılığa tələbəlik dövründən başlamışdı. Onun elmi-kütləvi məqalələri, şeirləri, müsahibələri ingilis, türk, rum dillərində çap olunmuşdu. London və Nyu-Yorkda "Vilyam Bleyk cənnəti və cəhənnəmi" (1973) adlı monoqrafiyası, burada və Nyu-Yorkda 1989-cu ildə "İran: bir uşağın xatirəsi, böyüyün xatirəsi" kitabı ingilis dilində çap olunmuşdu.

Yurdsevər ziyalının həyat və fəaliyyəti, yaradıcılığı haqqında düşündükcə görürsən ki, bu işıqlı aləmin ona bəxş etdiyi ömür-gün çərçivəsində neçə-neçə nəslin çırpıntıları, döyüşləri, bunlarla yanaşı, qürbət və mühacirətin məhsulu, sıxıntı, firqət, məhrumiyyətlərlə dolu olan bir ömür yolu keçmişdir. Yaşadığı müddət ərzində, əslində o, tarix yazıb. Bu tarix müəllifi olduğu bir çox şeir kitablarında öz əksini tapıb. Ömrünün çox hissəsini Vətəndən uzaqda keçirsə də hər zaman qəlbi Vətən eşqiylə döyünmüşdür:

***Azərbaycan!***
***Nağıllarımın ölkəsi,***
***Son yerim, son sığınacağım...***
***Həsrət dərdimin davası.***
***Altı qızıl, üstü qızıl,***

***Tüstüsü də qızıl məmləkətim,***
***Havam, suyum, bərəkətim!...***

Vətənin uğurlarına, qazandıqlarına sevinən şair, itirdiklərini özünə dərd edirdi, Vətənin dərdi onu kövrəldirdi. Qarabağ dərdi sağalmaz yarasına çevrilmişdi. Təbrizi laçınlı uşağın dilindən eşitdiyi Qarabağ həqiqətlərindən belə söz açmışdı:

***Atam, qardaşlarım döyüşürdü***
***Düşmən cürət eləmirdi***
***Ayaq bassın Laçın torpağına…***
***Atdılar Laçını***
***Satdılar Laçını.***

Ömrünün çox hissəsini qürbətdə Vətən eşqiylə yaşasa da şərəflə Vətəninə xidmət etmişdi, daim Azərbaycanın Güneyini də, Quzeyini də tərənnüm etmişdi. Professoru olduğu Böyük Britaniyanın Edinburq Universitetində və digər dərs keçdiyi univesritetlərdə beynəlxalq konfranslarda, simpoziumlarda Vətəninin adından danışmışdı. O, Vətəndən uzaqda olduğu hər yerdə qəlbində Azərbaycan adlı məmləkətimizi daşımışdı. Özünün dediyi kimi: "Mən Vətəndən çıxdım, Vətən məndən çıxmadı"!

Tarixdə nadir xalqlara nəsib olmuş ikiyə parçalanma 2 əsrdən çoxdur ki, Azərbaycan xalqının da taleyinə yazılıb. Bu hal həmişə şairi narahat etmiş və şeirlərində onu dilə gətirmişdi:

Necə bir Vətənə iki deyəsən.

Professor Qulamrza Səbri Təbrizini ulu öndər Heydər Əliyev 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayında Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının İdarə heyətində özünə müavin vəzifəsinə təyin etmişdi. O, Bakıda Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının (DAƏŞ) ofisini təşkil etmiş və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyətləri, diaspor təşkilatlarıyla əlaqələr quraraq Azərbaycanın xaricdə təbliğində misilsiz xidmətlər göstərmişdi. Ruhu şad olsun Vətəni həsrətli, Azərbaycanı arzularında bütövləşdirən soydaşımızın.


**Lalə BƏDİROVA,**
**AMEA Folklor İnstitutunun**
**elmi işçisi**



Xalq qəzeti .- 2023.- 7 fevral.- S.9.